**UOT 75**

**Musa Əmiraslanov**
**Azərbaycan Dövlət Rəssamlıq Akademiyası**
**Dissertant**
**E-mail: musaamiraslanov@mail.ru**

# XALQ RƏSSAMI CƏMİL MÜFİDZADƏNİN KİTAB NİŞANLARI

**Xülasə**: Azərbaycanın Xalq rəssamı Cəmil Müfidzadənin (1934-2019) bədii irsində qədim və müasir tarixi, eləcə də təbii sərvətləri vəsf edən əsərlərlə yanaşı, kitab nişanları da xüsusi yer tutur. Onun yaradıcılığında ilk ekslibrislərə XX əsrin altmışıncı illərində rast gəlinir. Rəssamın 1967-1969-cu illərdə yaratdığı kitab nişanları bu janrın bədii ifadə imkanlarının sonsuzluğunu özündə yaşadan nümunələr hesab oluna bilərlər.

Öncədən deyək ki, onun ərsəyə gətirdiyi kitab nişanları milli məkanda ona qədər bu janrda yaradılmış digər nümunələrdən kifayət qədər fərqlənirlər. Onun ekslibrislərində estetik müxtəlifliyin bədii imkanlarının daha da qabardılmasına xüsusi diqqət yetirilmişdir. Başqa sözlə desək, müəllifin baslica məqsədi Azərbaycan qrafikasında qədimlərdən bu günümüzə kimi davam edən bədii proseslərə özünəməxsus münasibət və artıq baş verənlərin sayəsində gerçəkləşən bədii prinsiplərə fərdi yanaşma nümayiş etdirmək olmuşdur. Bu o qədər asan olmasa da, rəssamın müxtəlif peşə adamlarına həsr olunmuş ekslibrisləri fərqli forma-biçiminə, incə ifadə tərzinə və rəng həllinə görə seçilməklə, əvvəllər rast gəlmədiyimiz estetika daşıyıcılığına görə yadda qalmaqdadır.

Bu mənada Cəmil Müfidzadənin planetin ən qocaman sakini Şirəli Müslümova, şair M.Rahim, O.Sarıvəlli, F.Qoca və R.Həmzətova, musiqiçi Q.Qarayev, Ə.Əzizov və H.Əliyevə, rəssam S.Bəhlulzadə, D.Uzunov və V.Tolliyə həsr olunmuş ekslibrisləri səciyyəvi bədii elementlərinə görə seçilirlər. Jurnalist V.Trofimov və K.Abdullayevə, dövlət xadimi P.Yelistratova, eləcə də sənətşünas M.Tərlanova və F.İskəndərova həsr olunmuş kitab nişanları da maraqlı kompozisiyalarına görə yadda qalırlar.

**Açar sözlər**: qrafika, ekslibris, əlyazma, cizgi, rəmz, ifadə, ənənə, tarix.

Azərbaycan incəsənətinin janr zənginliyinin daha bir təsdiqi olan kitab nişanlarının (ekslibris) milli məkanda yaranma tarixi çox qədimdir. “Hələ XIII əsrdə Nəsirəddin Tusinin Marağa rəsədxanası kitabxanasının, XVI əsrdə Şah İsmayıl Xətainin saray kitabxanasının, XIX əsrdə Abbasqulu ağa Bakıxanovun, Mirzə Fətəli Axundovun zəngin kitabxanasının olması Azərbaycan kitab nişanı tarixinin lap qədimlərdə yaranma ehtimalını çoxaldır. Onların orta əsrlərdə yazılmış müxtəlif əlyazmalarında rast gəlinməsi isə bu fikri təsdiqləyir“ (3,6).

Bu fikirlərə əlavə etmək lazımdır ki, kitab nişanlarının yaranması sonrakı dövrlərdə davam etdirilsə də, sovet dönəmində ona qarşı olan əvvəlki güclü maraq xeyli azalmışdır. Yalnız XX əsrin ikinci yarısında Azərbaycan təsviri sənətinin duyulası çiçəklənmə mərhələsində yenidən kitab nişanlarına qayıdış baş tutmuşdur. Bu da ilk növbədə SSRİ-nin iri şəhərlərində ali təhsil alıb Bakıya qayıdan gənc rəssamların təhsil prosesində müxtəlif rəsm texnikaları və janrları ilə yaxından tanışlığı sayəsində gerçəkləşmişdir. Azərbaycan qrafika sənətinə özünəməxsus töhfələr vermək arzusu ilə yaşayan belə gənclərdən biri də Cəmil Müfidzadə (1934-2019) olmuşdur.

Sonralar adı məşhur "altmışıncılar nəsli" nümayəndələrinin sırasında çəkiləcək Cəmil Müfidzadənin sənət "mən"inin əldə olunmasına uzanan çətin axtarışlar yolu Bakıda məşhur "Əzimzadə məktəbi"ndə təhsilini başa vurandan sonra, Ukraynadan keçmişdir. Bir il Kiyev orta rəssamlıq məktəbində oxuyan gənc rəssam, ardınca Xarkov Dövlət Rəssamlıq İnstitutunda qrafika ixtisası üzrə təhsil almışdır. Ukrayna paytaxtında A.M.Lopuxovdan, Xarkovda isə V.F.Mironenko və Q.A.Bondarenkodan qrafikanın incəliklərini öyrənən Cəmil Müfidzadə artıq təhsilsonu işlədiyi "Neft daşları" adlı diplom işində bu texnikanın özəlliklərinə sona qədər yiyələndiyini sərgiləmişdir. Bundan sonra onun müstəqil yaradıcılıq dövrü başlamışdır...

Rəssamın yarım əsri əhatə edən bədii irsində Azərbaycanın uzaq-yaxın tarixinə və təbii sərvətlərini vəsf edən əsərlərlə yanaşı, kitab nişanları da xüsusi yer tutur. Belə ki, onun altmışıncı illər yaradıcılığı həm də onun ekslibrisə – kitab nişanlarına müraciəti ilə əlamətdar olmuşdur. Onun 1967-1969-ci illərdə yaratdığı kitab nişanlarını bu janrın bədii imkanlarının nəhayətsiz olmasını təsdiqləyən nümunələr saymaq olar.

Öncədən deyək ki, onun ərsəyə gətirdiyi kitab nişanları bu janrın milli məkanda ona qədər yaradılan digər nümunələrindən duyulası dərəcədə fərqlənir. Belə ki, onların bədii tutumunda estetik çoxçalarlılığın qabardılmasına xüsusi diqqət yetirilmişdir. Başqa sözlə desək, başlıca müəllif məqsədi yaratdıqlarında çoxəsrlik tarixə və zəngin bədii ənənələrə malik olan Azərbaycan qrafika sənətində orta əsrlərdən başlayaraq baş verən və bu günümüzə kimi davam edən bədii proseslərin nəticələrinə özünəməxsus münasibət bəsləmək, artıq əyaniləşmiş bədii tutumlara fərdi yanaşma nümayiş etdirmək olmuşdur. Bunun elə də asan olmamasının qarşılığında, rəssamın müxtəlif peşə adamlarına həsr olunmuş ekslibrisləri bir-birindən fərqli forma-biçim, ifadə tərzi və rəng-cizgi həlli ilə təqdim etməsi duyulası və bu vaxta qədər rastlaşmadığımız estetikaya bələndiyindən uzun müddət unudulmur.

"O, respublikamızda ilk dəfə ofort texnikasında özünəməxsus kompozisiya həlli, milli duyumu zərif cizgiləri ilə diqqəti cəlb edən kitab nişanları yaratmışdır. Rəssamın miniatür əsərlərinin əsas komponentləri böyük məna yükü daşıyıcıları

olub, ekslibrislərin həsr olunduğu şəxslərin obrazlarına xas olan cəhətləri şərti və rəmzi təsvirlərlə aşkarlayır" (2,215).

Onun ekslibrisləri işləmə manerasına, kompozisiya biçiminə görə də orijinal olub, heç kimi xatırlatmır. Onları diqqətlə nəzərdən keçirdikdə rəssam dəst-xəttinin sabitliyinə, yeni bədii keyfiyyətlərin əlavə olunduğu açıq duyulur. Belə əsərlərdən biri zamanında planetin ən qocaman sakini kimi tanınan Şirəli Müslümova həsr olunmuşdur.

Düzbucaqlı formata malik kompozisiyanın mərkəzini azman - uzun ömürlülüyü ilə məşhur olan palıd ağacının təsviri tutur. Ofort texnikasında icra olunan bu qrafika nümunəsinin incə cizgilərlə gerçəkləşmiş əsas məna-məzmun daşıyıcısını - palıd ağacını əhatələyən rəmzi ünsürlərin kompozisiyaya bütövlük bəxş etməsi danılmazdır. Burada yer almış ağsaqqalın doğulduğu ilə aid – 1805, ekslibrisin yaradıldığı tarixi bildirən – 1969 rəqəmləri, eləcə də müxtəlif dillərdə yazılmış "Şirəli Müslümov" sözü və milli naxış ünsürlərinin bədiiliyin əldə olunmasına yönəldilməsi görünəndir.

Azərbaycan təbiətinin nəğməkarı, görkəmli mənzərə ustası Səttar Bəhlulzadəyə həsr olunmuş ekslibris də obrazlı bədii həlli ilə seçilir. Bu mənada kompozisiyanın məna-məzmun daşıyıcısı olaraq Abşeron təbiəti motivinin seçilməsini də məntiqli hesab etmək olar. Qədim Atəşgahı, əncir ağacı və günəş şəfəqlərinə bələnmiş günəşi kompozisiyanın əsas ünsürlərinə çevirən C.Müfidzadə, bütünlükdə S.Bəhlulzadəyə həsr olunmuş kitab nişanının onun Azərbaycanda mənzərə janrının inkişafında əvəzsiz rolu olan sənətkarla bağlılığını inandırıcı əks etdirməyə nail olmuşdur. Ofort texnikasında ərsəyə gətirilmiş qrafika nümunəsini cizgi zərifliyi səciyyələndirir...

Rəssamın digər tanınmışlarla bağlı ekslibrislərində də onların şəxsiyyətini və əməllərini qabardan ünsürlərdən bədii vasitə kimi istifadə olunmuşdur. Onun görkəmli Azərbaycan şairi Osman Sarıvəlliyə - el arasında zərb-məsələ çevrilmiş "Hər kim yüz il yaşamasa, günah onun özündədir" deyiminin müəllifinə həsr olunmuş kitab nişanında şairin sözlə yoğurulmuş yaradıcı varlığını onu daima ilhamlandıran kənd gözəli ilə ifadə etməsi duyğulandırıcıdır. Şaquli kompozisiyanı boyaboy tutan çiyni kuzəli el gözəlinin ifadəli duruşunda qeyri-adi cəlbedicilik duyulmaqdadır. Bulaqdan geri dönən qızın başının üzərində verilmiş iri ay təsvirinin ümumi kompozisiyaya əlavə lirik çalarlar bəxş etməsi də danılmazdır. Bu dəfə də ekslibrisin ofort texnikasında yerinə yetirilməsi, ilk növbədə onun ifadə etdiyi incə duyğuların inandırıcılığını qoruyub saxlamaqla bağlıdır...

Cəmil Müfidzadənin şair M.Rahim, F.Qoca və R.Həmzətova, musiqiçi Q.Qarayev, Ə.Əzizov və H.Əliyevə, rəssam D.Uzunov və V.Tolliyə, jurnalist V.Trofimov və K.Abdullayevə, dövlət xadimi P.Yelistratova, eləcə də sənətşünas M.Tərlanova və F.İsgəndərova həsr etdiyi ekslibrislərdə də kompozisiyalar səciyyəvi bədii ünsür daşıyıcılığı ilə yadda qalır.

Kitab nişanlarının texniki həllində bir qayda olaraq oforta üstünlük verən C.Müfidzadə, həm də yaradıcılığının bu mərhələsində daha çox lirik və romantik olduğunu təsdiqləmişdir. Onun kompozisiyalara daxil etdiyi milli tutumlu ünsürlərdən həm də mənəvi dəyərlərimizin təbliği məqsədilə istifadə olunduğu da duyulandır. Bunu onun bolqar həmkarı Deçko Uzunova və eston qrafiki Vivi Tolliyə həsr etdiyi kitab nişanları yaxşı əks etdirir. Rəssamın pribaltikalı rəssamın ekslibrisində Azərbaycan məişət əşyalarından - misgərlik nümunələrindən istifadəsi həm də qadınların mətbəxə kişilərdən daha yaxın olmaları ilə əlaqələndirmək olar. Bolqarıstanlı rəngkarın kitab nişanında qürur və möhtəşəmlik rəmzi olan əski tikililərin qonşuluğunda ucalan Qız qalasına yer verilməsi də onun mənsub olduğu cinslə əlaqəsinin olduğunu ən azı ehtimal etmək olar.

Müəllif əgər jurnalist dostu Kamal Abdullayevin ekslibrisində onun uzaq-yaxın məkanlara daimi səfərlərinə işarə edən ünsürlərdən istifadə edibsə, digər qələm sahibi Vladimir Trofimovun kitab nişanında isə onun onu ilhamlandıra biləcək qadın gözəlliyinin rəmz ifadəsinə üstünlük vermişdir.

Şair Məmməd Rahimin və Fikrət Qocanın kitab nişanlarının kompozisiyalarında milli naxış ünsürlərindən və ilham pərilərinin təsvirlərindən uğurla istifadə olunmuşdur. Bu nümunələrdə müəllifin cizgi və xətt incəliyini uğurla məna-məzmun daşıyıcılığına yönəltməsi duyulmaqdadır. F.Qocanın şaquli formata malik ekslibrisində yanı səhəngli qızın aylı pəncərəyə doğru dönüşündə hansısa həsrətə soymaq istəyi qabarıq hiss olunur.

Elə M.Rahimə həsr olunmuş kitab nişanda da ayrılıq motivi yer almışdır. Yaşantıları ilə baş-başa qalmış qızın ekspressiv görkəm almış oturuşunda sevgilisinə qovuşmaq həsrəti hiss olunmaqdadır.

Görkəmli kamança ustası Habil Əliyevə həsr olunmuş ekslibrisdə musiqiçinin çalğısı ilə baş-başa qalmış obrazını ifadəli - nazik xətlərlə ifadə edən rəssam, dahi bəstəkar Qara Qarayevin ekslibrisində əsərlərinin adları ilə “musiqi açarı”na dönmüş qlobusdan istifadə etməklə, onun əsərlərinin bəşəri mahiyyət daşıdığına işarə vurmuşdur.

Sənətşünas Məmmədağa Tərlanovun ekslibrisində də onun fəaliyyətinin yönümünü əyanilәşdirən müxtəlif ünsürlərdən məntiqlə istifadə olunmuşdur. Həmin nişanın kompozisiyasına alimin davamlı olaraq tədqiq etdiyi dekorativ-tətbiqi sənətə aid olan xalçanın və onun kitablarından birinin daxil edilməsi də dediklərimizi təsdiqləyir.

Ötən əsrin altmışıncı illərində Azərbaycan KP MK-nın ikinci katibi vəzifəsində çalışan Pyotr Yelistratovun rəssam tərəfindən kitab nişanının yaranması heç də təsadüfi olmayıb. Belə ki, respublikada işlədiyi müddətdə Azərbaycan rəssamlarını, xüsusilə də istedadlı və mütərəqqi baxışlı olanlarını daima diqqətdə saxlayan və onlara qayğı göstərən partiya rəhbərinə müəllif diqqətini təbii saymaq olar. Bu mənada onun ekslibrisinin yaradılması elə də asan olmayıb. Rəs-

sam bu çətin işin öhdəsindən gələ bilmişdir. Onun əli bayraqlı fəhlələrlə rəssam palitrasını qoşalaşdırması, əslində onun siyasi mənsubluğu ilə yanaşı, həm də incəsənətə-rəssamlığa olan rəğbətini gözəl əks etdirir.

Rəssamın dünyasını vaxtsız dəyişmiş Firuz İsgəndərova həsr olunmuş kitab nişanında da obrazlı ifadə vasitəsindən məntiqlə istifadə edilmişdir. Gəncin ömür yolunun qısalığını əks etdirən yarımçıq kitab səhifəsi, onun üzərinə sərilmiş gül və bu iki ünsürü yuxarıdan tamamlayan gözü yaşlı qızın təsviri kompozisiyanın daşıdığı kədər yükünü gözəl əks etdirir.

Həyat və yaradıcılığı Azərbaycanla bağlı olan jurnalist Yevgeni Minayevin kitab nişanında isə rəssam, onun bu yurda bağlılığını ifadə etməyə çalışmışdır. Bunun üçün o, kompozisiyaya milli şəbəkə və Bakının emblemini daxil etmişdir. Jurnalistin mərkəzi hissəni tamamlayan adının Şərq xəttatlıq tərzində yazılması da məntiqli olub, kompozisiyanın ümumi ruhu ilə gözəl səsləşir...

Rəssamın ağ-qara cizgilərdən məntiqlə istifadəsinin nəticəsidir ki, bütün hallarda rəng yığcamlığı ilə seçilən ekslibrislərində gözlənilməz bədii nəticələrlə qarşılaşırıq. Onun hər bir kompozisiyanın məna-məzmun daşıyıcıları olan əsas və köməkçi elementləri geniş bədii ümumiləşdirmələrlə yanaşı, duyulası zərifliyə bələməsinin heyrətdoğurucu görüntülərə çevrilmələri də ilk növbədə görkəmli sənətkarın illərlə topladığı nəzəri və təcrübi biliklərin ifadəsi sayılmalıdır. Bunu rəssamın memarlıq abidələri və neftlə bağlı əsərlərlə yanaşı, çoxsaylı kitab nişanlarında da müşahidə etmək mümkündür.

Bütünlükdə o, yaradıcılığında milli bədii qaynaqlara tapınan rəssamlardandır. Onun əski nümunələrimizə münasibəti səthi olmayıb, əsl yaradıcı mahiyyət daşıyır. Elə bunun sayəsində də əsərlərində milliliklə yanaşı, müasirlik və zaman kateqoriyası da nəzərəçarpan və duyulandır.

Onun ekslibrisləri işləmə manerasına, kompozisiya biçiminə görə də orijinal olub, heç kimi xatırlatmır. Onları diqqətlə nəzərdən keçirdikdə rəssam dəst-xəttinin sabitliyinə yeni bədii keyfiyyətlərin əlavə olunduğu açıq duyulur.

## Ədəbiyyat siyahısı:

1. Azərbaycan incəsənəti (K.Kərimov, R.Əfəndiyev,N.Rzayev, N.Həbibov). Bakı,1992. 344 səh.

2. Əliyev Ziyadxan. Cəmil Müfidzadə. Cizgilərə hopan ömür. Bakı, 2010. 212 səh.

3. Əliyev Ziyadxan. Azərbaycan ekslibrisi. Bakı,1988. 84 səh.

3. Петров-Стромский В. Связь времен. Москва,1988. 120 стр.

**Муса Амирасланов**

## Книжные знаки народного художника Джамиля Муфидзаде

**Резюме:** Наряду с произведениями, прославляющими древнюю и новейшую историю, а также природные богатства Азербайджана, книжные знаки занимают особое место в творческом наследии народного художника Джамиля Муфидзаде (1934-2019). Эклибрисы впервые появились в его творчестве в шестдесятые годы XX века. Книжные знаки, созданные им в 1967–1969 годах, являются примером безграничных художественных возможностей этого жанра.

Прежде всего, следует отметить, что созданные им книжные знаки существенно отличаются от других образцов этого жанра, созданных до него в национальном пространстве. В его экслибрисах особое внимание было уделено преувеличению эстетического разнообразия их художественного потенциала. Другими словами, главной целью автора было своеобразное отношение к результатам художественных процессов, происходивших в азербайджанской графике в средневековья и продолжающихся по сей день. И главную свою цель он видел в индивидуальном подходе к уже существующим художественным принципам. Хотя это не так просто, но чувствуется, что экслибрисы созданные художником, посвященные людям разных профессий, отличаются разнообразием форм, тонкими выражениями и цветовыми решениями, поэтому они не забываются надолго из-за эстетики, с которой мы никогда раньше не встречались.

В этом смысле, эклибриси Джамиля Муфидзаде посвященные самому старейшему жителю планеты Ширали Муслимову, поэтам М.Рахим, О.Саривелли, Ф.Годжа и Р.Гамзатову, музыкантам К.Караеву, А.Азизову и Х.Алиеву, художникам С.Бахлулзаде, Д.Узунову и В. Толли отличаются характерными художественными элементами. Запоминаются интересными композициями книжные знаки журналистов В. Трофимова и К. Абдуллаева, государственного деятеля П. Елистратова, а также искусствоведов М. Тарланова и Ф. Искендерова.

**Ключевые слова**: графика, экслибрис, рукопись, штрих, символ, выражение, традиция, история.